- NKA tətbiq etməli olan fəaliyyət növləri üzrə ödənişlə (nağd və ya nağdsız) bağlı **NKA çekinin vurulduğu tarix** sayılacaqdır.

❖ **ƏDV depozit hesabına pul vəsaitlərinin daxil olması vaxtının ƏDV tutulan əməliyyatın aparılma vaxtı kimi müəyyən edilməsi məqsədilə**

- təqdim edilmiş malların (işlərin, xidmətlərin) ƏDV-siz dəyərinin və ya ƏDV məbləğinin ödənilməsi ƏDV tutulan əməliyyatın aparılması vaxtı hesab ediləcəkdir.

DÖVLƏT VERGİ XİDMƏTİ

# ƏDV ödəyiciləri bunları bilməlidir!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

❖ Notariusun depozit hesabı vasitəsilə həyata keçirilən **əməliyyatlar üzrə əməliyyatın dəyərinin notariusun bankda açdığı depozit hesabına ödənilməsi, habelə** təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri üzrə yaranmış **maliyyə öhdəliklərinin qarşılıqlı şəkildə əvəzləşdirilməsi** halında **ƏDV-nin əvəzləşdirilməsi məqsədilə**

- həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank və digər ödəniş hesabına ödənilməsinə **bərabər tutulacaq**,
- bu əməliyyatlar üzrə **ödənilmiş ƏDV əvəzləşdiriləcəkdir**.

**Dövlət büdcəsinə ödənilməli olan ƏDV ilə bağlı ətraflı məlumatla "Əlavə dəyər vergisi (ƏDV)" adlı bukletdən tanış ola bilərsiniz.**

**BAKI — 2024**

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

❖ **İdxal edilmiş kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyicilərinə**

idxal etdikləri kənd təsərrüfatı məhsullarına görə ödənilmiş ƏDV-ni əvəzləşdirmək və həmin məhsulların təqdim edilməsi zamanı ƏDV-ni əməliyyatın tam dəyərindən hesablamaq hüququ verilmişdir.

Bu məqsədlə həmin vergi ödəyiciləri öz seçimləri barədə 01.01.2024-cü il tarixdən həmin məhsulları idxal edəcəkləri tarixədək İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən təsdiq edilmiş müvafiq məlumat formasını uçotda olduqları vergi orqanına təqdim edir və vergi ödəyicisinin seçimi il ərzində dəyişdirilmir.

Müvafiq məlumat forması qeyd edilən müddətdə təqdim edilmədikdə ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir.

❖ **Alınmış mallarla (işlərlə, xidmətlərlə) bağlı yaranmış borclar üzrə faktorinq (tələbin güzəşti) əməliyyatları çərçivəsində ƏDV-nin əvəzləşdirilməsi məqsədilə** əməliyyatın dəyəri faktorun (tələb güzəşt edilən şəxsin) bank hesabına, ƏDV məbləği isə satıcının ƏDV depozit hesabına ödənildikdə ödənilmiş ƏDV məbləği əvəzləşdiriləcəkdir.

❖ Keçmiş tarixlə könüllü qaydada ƏDV qeydiyyatına alınmış vergi ödəyicilərinə malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən **1 iş günü müddətində** ƏDV məbləğinin ödənilməməsinə görə maliyyə sanksiyası tətbiq edilməyəcəkdir.

❖ **Alınmış avans ödənişlərə görə elektron qaimə-fakturanın verilməsi və onun verilmə vaxtının müəyyən edilməsi məqsədilə**

- Alınmış avans ödənişləri barədə alıcıya elektron qaimə-faktura veriləcək və
- bu halda elektron qaimə-faktura **avans ödənişinin alındığı gün təqdim ediləcəkdir**.

❖ **NKA tətbiq edilməli olan fəaliyyət növləri üzrə ödənişlə (nağd və ya nağdsız) bağlı NKA çekinin vurulduğu tarixin ƏDV tutulan əməliyyatın vaxtı kimi qiymətləndirilməsi məqsədilə**

ƏDV tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün

- NKA tətbiq etməli olan fəaliyyət növləri istisna olmaqla digər fəaliyyət növləri üzrə **nağd pul vəsaitini aldığı,**
- nağdsız ödəmədə isə pul vəsaitinin onun bank və digər ödəniş hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı **hesaba daxil olduğu vaxt.**